# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN AĞIR NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Qurqunayeva T.N.**

*Bakı Dövlət Universiteti*
*turkan.qurqunayeva@gmail.com*

Ermənistan Respublikasının uzun illər apardığı işğalçılıq siyasəti nəticəsində Azərbaycanın təbiətinə və bioloji müxtəlifliyinə ciddi ziyan vurulmuşdur. İşğalçılıq dövrü və müharibə müddəti ərzində respublikamızın ən gözəl guşələrindən biri olan Qarabağın meşə zolaqlarının və təbiətinin vəhşicəsinə qırılmasını və bilərəkdən yandırılmasını, Araz çayı, onun qolları və regiondan axan digər çayların çirkləndirməsini, flora və fauna növlərinin məhv edilməsini və regionda mövcud olan mineral xammal ehtiyyatlarının qanunsuz mənimsənilməsini dövlət siyasətinə çevirmişlər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata əsasən Ermənistanın hərbi təcavüzü nəticəsində respublikamızın işğal olunmuş ərazilərində mövcud olan 460 növdən çox ağac və kol bitkiləri məhv edilmiş və dünya florasının xəzinəsindən silinmək üzrədir. Bunlardan 70 növü endemik bitkilər olmaqla dünyanın heç bir ərazisində təbii olaraq bitmir. Bu bitkilərə ağaclardan Qaraçöhrəni, ayfındığı, yalanqoz, şərq çinarı, Araz palıdı, meşə üzümü, söyüdyarpaq armud, pirkalı və s. ağac növlərini misal göstərə bilərik.

Bununla yanaşı bu ərazilərdə Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş bir sıra heyvan növləri qorunur. Bu səbəbdən Qırmızı kitaba düşmüş flora və faunanın hazırki vəziyyəti barədə dəqiq məlumat yoxdur. Sözügedən flora və faunaya məməlilərin 4 növü, quşların 8, balıqların 1, həşəratların 8, bitkilərin isə 27 növü daxildir.

Qarabağ ərazisində mövcud olan 261 min hektar meşə sahəsi, 215 təbiət abidəsi, qiymətli təbiət incilərindən olan 145 Şərq çinarı, 5 ədəd geoloji-paleontoloji obyekt və digər təbiət və tarixi abidələrin böyük əksəriyyəti bu ərazilərdə ermənilər tərəfindən demək olar ki, tamamilə məhv edilmişdir.

Xüsusilə təmas xəttində yerləşən Füzuli, Cəbrayıl, Ağdam, Xocavənd və Tərtər rayonlarının əraziləri erməni işğalçıları tərəfindən bilərəkdən və şüurlu şəkildə qəsdən od vurularaq yandırılmışdır. Yaranan yanğınlar nəticəsində on min hektarlarla ərazilər, eyni zamanda bu ərazilərdə mövcud olan canlı təbiətə çox ciddi ziyan dəymişdir. Mütəmadi olaraq törədilən yanğınlar nəticəsində 110 min hektardan çox yararlı torpaqlar məhv edilmişdir. Ətraf mühitə və canlı təbiətə əhəmiyyətli dərəcədə ziyan vurulmuşdur.

Aparılan araşdırmalar zamanı mütəxəssislər tərəfindən ilkin qiymətləndirməyə görə ətraf mühitə və təbii sərvətlərə 265,3 mlrd ABŞ dolları həcmində ziyan dəymişdir. Erməni vandallarının təbiətə və ətraf mühitə qarşı yönəlmiş

ekoloji terror barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının Baş Katibinə, Çərçivə Konvensiyasının katibliyinə və BMT-nin müvafiq təşkilatlarına rəsmi müraciətlər edilmiş və bir sıra beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi çatdırılmışdır.

Biz apardığımız iri miqyaslı tədqiqatlar əsasında ərazinin ekocoğrafi şəraitinə uyğun olaraq bitki və heyvanat aləminin zənginləşdirilməsini həyata keçirməyə yeni təkliflər hazırlayırıq.